*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 598-604*

https://doi.org/10.62837/2025.10.598

**SAMİRƏ MƏRDANLI**
**Bakı Dövlət Universiteti, Zahid Xəlilov 23, AZ1148**
**mardanli.samira@gmail.com, +994 51 620 00 99**
**Orcid ID: 0009-0002-9062-0782**

# NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" ƏSƏRİNDƏ MÖVZULARIN ELMİ TƏSNİFATI

**Xülasə**

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" "Xəmsə"nin ilk və həm didaktik, həm fəlsəfi-poetik xarakter daşıyan nümunəsi kimi XII əsrin mənəvi-intellektual mühitini əks etdirən geniş tematik əsərdir; burada əxlaqi dəyərlər, fəlsəfi ideyalar, sufi-mistik alleqoriyalar və ictimai-siyasi baxışlar poetik dildə təqdim olunur, metafora-alleqoriya və leksik quruluşun vəhdəti əsərin mənəvi-etik çərçivəsini formalaşdırır və nəticədə poema həm klassik poeziyanın zirvəsi, həm də etik-fəlsəfi düşüncənin sistemləşdirilmiş poetik nümunəsi kimi qiymətləndirilir, poetik dili və bədii zənginliyi isə onun sənətkarlığını və əsərin milli və Şərq humanist-fəlsəfi ənənələri üçün əhəmiyyətini göstərir.

**Açar sözlər:** dilçilik, "Sirlər xəzinəsi", Nizami Gəncəvi, leksik-semantik yanaşma, etik-fəlsəfi mövzular, tematik təsnifat, leksika

**Samira Mardanli**

# THE THEMATIC CLASSIFICATION OF SUBJECTS IN NIZAMI GANJAVI'S "THE TREASURY OF MYSTERIES"

**SUMMARY**

Nizami Ganjavi's "The Treasury of Mysteries" is the first work of the Khamsa and, as both a didactic and philosophical-poetic masterpiece, reflects the moral and intellectual climate of the 12th century. It presents ethical values, philosophical ideas, Sufi-mystical allegories, and socio-political perspectives in poetic form. The unity of metaphor, allegory, and lexical structure shapes the work's moral-ethical framework. Consequently, the poem is regarded both as a pinnacle of classical poetry and as a systematic poetic expression of ethical-philosophical thought; its poetic language and artistic richness highlight Nizami's mastery and the work's significance for national literature and the broader Eastern humanistic-philosophical

**Keywords:** linguistics, Treasury of Secrets, Nizami Ganjavi, lexical-semantic approach, ethical-philosophical themes, thematic classification, lexis

## Научная классификация тем в произведении Низами Гянджеви «Сокровищница тайн»

**Резюме.** «Сокровищница тайн» Низами Гянджеви — первое произведение «Хамсы», обладающее как дидактическим, так и философско-поэтическим характером, отражающее духовно-интеллектуальную атмосферу XII века. В поэме поэтически представлены нравственные ценности, философские идеи, суфийско-мистические аллегории и общественно-политические взгляды. Единство метафоры, аллегории и лексической структуры формирует нравственно-этическую основу произведения. В результате поэма рассматривается как вершина классической поэзии и систематизированное поэтическое выражение этико-философской мысли; её поэтический язык и художественное богатство подчеркивают мастерство Низами и значимость произведения для национальной литературы и восточной гуманистико-философской традиции.

**Ключевые слова:** лингвистика, «Сокровищница тайн», Низами Гянджеви, лексико-семантический подход, этико-философские темы, тематическая классификация, лексика

**Giriş**. Nizami Gəncəvinin (1141–1209) “Sirlər xəzinəsi” (“Məxzənül-Əsrar”) əsəri hikmət poeziyasının erkən və ən parlaq nümunələrindən biri hesab olunur. Əsər tez-tez didaktik poeziya kimi qiymətləndirilsə də, onun mürəkkəb bədii-fəlsəfi strukturu əxlaqi öyüd, sufi düşüncə, fəlsəfi təhlil və siyasi tənqidi çalarları unikal vəhdətdə birləşdirir. Bu baxımdan, onun poetik üslubu “hikmət və mərifətin bədii dillə ifadəsi” kimi dəyərləndirilir [3, s.41].

Əsərin tematik təsnifatı yalnız Nizami Gəncəvinin fərdi düşüncə dünyasını açmaqla qalmayıb, həm də XII əsrin fars-ərəb ikidilliliyi, türk siyasi-mədəni varlığı və islam fəlsəfəsinin yüksəlişi ilə səciyyələnən intellektual mənzərəsini anlamaq baxımından əhəmiyyətlidir. Tədqiqatçılar qeyd edirlər ki, Nizami Gəncəvi həm ərəb-fars ədəbi ənənələrini, həm də türk siyasi-mədəni mühitini öz poeziyasında sintez edə bilmişdir [8, s.22]. Bu kontekstdə, “Sirlər xəzinəsi” etik-fəlsəfi dəyərlərin bədii inikasını təqdim edən universal bir qaynaq kimi çıxış edir.

Mətnin çoxqatlı üslubu tədqiqatçılar tərəfindən əsərin “didaktik çərçivədən kənara çıxaraq həm fəlsəfi traktat, həm də mistik təlim” kimi dəyərləndirilməsinə səbəb olmuşdur [7, 114].

Araşdırmada farsca mətndən seçilmiş beytlərin təhlili və müasir tədqiqatların nəticələrinə istinadla “Sirlər xəzinəsi”nin poetik-fəlsəfi quruluşu və N.Gəncəvinin mövzu müxtəlifliyi sistemli şəkildə təsnif edilir.

**Əxlaqi mövzular.** “Sirlər xəzinəsi” əsərinin mərkəzində əxlaq dayanır və daha şair insan həyatını mənəvi bir səyahət kimi təqdim edərək doğruluq, təvazökarlıq, ədalət kimi fəzilətləri əsas prinsiplər kimi önə çıxarır. Farsca mətndə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 598-604*

yazıldığı kimi: «راستی را به‌دنیا پسندیده باش / که در راستی از فلک بالیده باش» (Rasti ra be-donya pəsəndide baş / Ke dər rasti əz fələk balide baş), yəni "Doğruluğu bu dünyada yol yoldaşı seç, çünki doğruluqda səmadan da ucalarsan." Buradakı balidən felinin poetik istifadəsi göstərir ki, fəzilət yalnız etik bir kateqoriya deyil, həm də kosmoloji mənaya malikdir; doğruluq insan ruhunu adi həyatdan yüksəldərək kainatla əlaqələndirir [3, s.64].

Kamal qeyd edir ki, N.Gəncəvinin etik dünyagörüşü Qurani-Kərim əxlaq prinsiplərinə dərin bağlılıqla formalaşıb və poetik dil vasitəsilə bu abstrakt dəyərləri oxucu üçün konkretləşdirir [5, s.77–79]. Eyni zamanda, Lewisohn vurğulayır ki, onun əxlaqı yalnız fərdi davranış qaydası kimi deyil, həm də kainatın harmoniyasını əks etdirən universal bir konsepsiya kimi təqdim edir [7, s.114]. Həmidiyan isə N.Gəncəvinin etik nəsihətlərini həm fərdi kamillik, həm də ictimai məsuliyyət baxımından təhlil edərək göstərir ki, bu öyüdlər fars hikmət poeziyasında etik və fəlsəfi düşüncənin harmonik birləşməsini təşkil edir [3, s.64]. Dəstgerdi isə əlavə edir ki, dahi Nizami həm fars, həm ərəb ədəbi ənənələrini sintez edərək, öz poetik sistemində etik prinsipləri bədii və estetik bir quruluşa çevirib [8, s.22].

"Sirlər xəzinəsi"ndə əxlaq fərdi, metaforik və kosmoloji səviyyədə verilir. Bu isə əsəri fars hikmət poeziyasının ən yüksək zirvələrindən biri kimi ön plana çıxarır [3, s.64].

**Fəlsəfi mövzular.** "Sirlər xəzinəsi"ndə fəlsəfi yanaşma əsərin mərkəzi mövzularından biridir. Bu yanaşma oxucuda həm əxlaqi, həm də ontoloji təfəkkürü stimullaşdırır və fəlsəfi öyüdləri poetik-estetik bir formaya çevirir.

N.Gəncəvi yaradıcılığında əğl (ağıl) həm fərdi davranışı, həm də ictimai qaydanı qoruyan bir mexanizm kimi göstərilir, yəni o, fərdi əxlaqı kollektiv idarəetmə və sosial harmoniya ilə birləşdirir [9, s.112–115].

Purcəvadi göstərir ki, Nizami İbn Sina və Qəzali ənənələrini poetik-estetik mühitdə yenidən işləyərək fəlsəfi diskursu geniş oxucu kütləsi üçün əlçatan edir [9, s.112–115]. Həmidiyan isə vurğulayır ki, N.Gəncəvi fəlsəfi anlayışları yalnız məntiqi prinsiplər kimi təqdim etmir, onları alleqorik hekayələr, metaforik simvollar ilə zənginləşdirərək oxucuya mənimsədir [3, s.71]. Bu yanaşma fəlsəfi fikirlərin həm intelektual, həm də emosional təcrübə kimi qavranmasını təmin edir.

Lewisohn N.Gəncəvinin fəlsəfi estetikasını sufizmlə əlaqələndirərək göstərir ki, əsərdə ağıl və məntiq həm fərdi kamillik, həm də kainati harmoniyanın qorunması üçün vacibdir [7, s.117]. Bu fikir Həmidiyan və Dəstgerdi tərəfindən də dəstəklənir; onlar qeyd edirlər ki, dahi Nizami fəlsəfi konsepsiyaları əxlaqi və etik kontekstə inteqrasiya edir və onları həm fərdi, həm də ictimai səviyyədə işləyərək poetik-estetik bir sistem yaradır [3, s.72; 8, s.30 ].

Purcəvadi hesab edir ki, dahi Nizami bilik, ağıl və təcrübəni bir-biri ilə əlaqələndirərək oxucu üçün həm düşüncə, həm də hərəkət istiqaməti müəyyən edir [9, s.118]. Həmidiyan əlavə edir ki, bu fəlsəfi-praktik yanaşma onun hikmət

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 598-604*

poeziyasının didaktik məqsədini gücləndirir, yəni əsər yalnız bədii deyil, həm də pedaqoji bir vasitə kimi çıxış edir [3, s.75]. Lewisohn isə vurğulayır ki, N.Gəncəvinin metaforik-estetik yanaşması fəlsəfi düşüncələri daha dərin, çoxsəviyyəli və təsirli edir, oxucunu həm əqli, həm də ruhani səviyyədə aktiv edir [7, s.119].

Beləliklə, "Sirlər xəzinəsi"ndə fəlsəfi mövzular yalnız fərdi düşüncə və etik nəsihətləri əhatə etmir; onlar həm də siyasi, sosial və ontoloji kontekstləri əks etdirərək əsərin çoxqatlı poetik quruluşunu tamamlayır. N.Gəncəvi fəlsəfi diskursu poetik-estetik bir mühitə çevirərək həm elm, həm də xalq hikmətinin birləşməsini təmin edir və bu yanaşma onun əsərini fars hikmət poeziyasının ən zəngin və çoxşaxəli nümunələrindən biri kimi ortaya çıxarır [8, s.30].

**Mistik, sufi mövzular.** "Sirlər xəzinəsi"ndə mistik elementlər (təsəvvüf) əsərin mərkəzi oxlarından birini təşkil edir və ruhun ilahi birliyə doğru səyahəti barədə alleqorik təsvirlərlə zəngindir. N.Gəncəvi tez-tez ürəyi daimi cilalanmalı bir güzgü kimi təsvir edir, bu, həm çağdaş Sufi şairlər, xüsusilə Sənainin, daha sonra isə Ruminin metaforik təsəvvürlərini əks etdirir.

Bu metaforik birləşmə "ürək və güzgü" - mistik epistemologiyanı göstərir: qəlbi təmizləmə ruhu ilahi görməyə aparır. Şirazi vurğulayır ki, N.Gəncəvi mistik təcrübəni yalnız ekstazik bir proses kimi təqdim etmir; o, onu əxlaqi intizam, intellektual refleksiya və fərdi kamilliklə birləşdirir [10, s.144–148]. Bu yanaşma, N.Gəncəvinin mistik poetikasını daha balanslı və sistemli edir, oxucuya həm mənəvi, həm də düşüncəvi təcrübə təqdim edir.

Həmidiyan qeyd edir ki, N.Gəncəvi metaforik simvolları-ürək, güzgü, işıq, su yalnız estetik məqsədlər üçün istifadə etmir, onlar eyni zamanda insanın özünü tanıması, mənəvi təmizlik və ilahi bilik əldə etməsi üçün didaktik vasitə kimi çıxış edir [3, s.82–84]. Lewisohn əlavə edir ki, N.Gəncəvinin mistik təsəvvürləri sufizm ənənəsinin erkən mərhələləri ilə paralellik təşkil edir; burada ağıl və məntiq həm fərdi kamillik, həm də kainati harmoniyanın qorunması üçün vacibdir [7, s.123-125].

Purcəvadi hesab edir ki, N.Gəncəvi mistik obrazları bir-birinə bağlayaraq sufizm metaforikasının zənginliyini nümayiş etdirir və onları etik-fəlsəfi çərçivəyə yerləşdirir. Belə ki, ürək-güzgü simvolu, işıq metaforaları və təzahür konseptləri yalnız ruhani səfərin göstəricisi deyil, həm də əxlaqi və fəlsəfi məqsədləri birləşdirir. Bu, dahi Nizaminin poetik-estetik sistemi ilə sufizm düşüncəsini harmonik şəkildə sintez etdiyini göstərir [9, s.125-130].

Əlavə olaraq, Dəstgerdi bildirir ki, N.Gəncəvi mistik simvolları həm fərdi, həm də ictimai kontekstdə istifadə edir; onun poetik-estetik dili oxucunu həm şəxsi mənəvi inkişaf, həm də sosial-harmoniya prinsipləri üzərində düşünməyə yönləndirir [9, s.35-37]. Bu fikir Həmidiyan tərəfindən də dəstəklənir: N.Gəncəvinin mistik ideyaları yalnız sufizm praktikasını əks etdirmir, həm də geniş fəlsəfi və etik çərçivəni əhatə edir [9, s.85].

Corbin göstərir ki, N.Gəncəvi simvolik və metaforik dil vasitəsilə mistik biliklə etik-mənəvi təlimi birləşdirir, beləliklə, oxucuya həm estetik, həm də intellektual və ruhani təcrübə təqdim edir [1, s.152-154]. Annemarie Schimmel isə əlavə edir ki, N.Gəncəvi mistik-estetik yanaşması ilə sufizm poeziyasında simvol dilinin inkişafına rəhbərlik edib [2, s.98-101].

Beləliklə, "Sirlər xəzinəsi"ndə mistik mövzular yalnız ruhun ilahi birliyə səyahətini təsvir etmir; onlar əxlaqi, fəlsəfi, epistemoloji və sosial harmoniyanı əhatə edən çoxqatlı poetik struktur yaradır. N.Gəncəvi mistik-estetik dil vasitəsilə həm sufizm ənənəsini zənginləşdirir. Bu isə əsəri fars hikmət poeziyasının ən kompleks və çoxsahəli nümunələrindən biri kimi ortaya çıxarır [2, s.98-101].

**Siyasi və sosial mövzular.** "Sirlər xəzinəsi", əsasən, hikmət poeziyası olmaqla yanaşı, əsərdə güclü siyasi və sosial alt-mətnlər də mövcuddur. N.Gəncəvi əsəri Mənuçöhr Fəxrəddin Bəhramşaha həsr etmiş və burada ədalətli idarəçilik və hakimiyyətin məsuliyyətləri kimi mövzuları poetik-estetik dillə çatdırmışdır.

N.Gəncəvi hakimiyyət və əxlaq arasında birbaşa əlaqə quraraq, "mirrors for princes" (padşah güzgüləri) janrının prinsiplərini poetik-estetik bir mühitdə tətbiq edir. Bosworth qeyd edir ki, N.Gəncəvinin siyasi məsləhətləri sadəcə saray öyüd-nəsihəti deyil; onlar alleqorik formada despotizmin tənqidi və ədalətsiz hakimlərin taleyinə dair mənəvi dərslər təqdim edir [1, s.201-203].

Həmidiyan əlavə edir ki, N.Gəncəvi siyasi təhlilləri metaforik hekayələr və şah, vəzir və xalq nümunələri vasitəsilə çatdıraraq oxucuya həm fərdi, həm də ictimai məsuliyyətin əhəmiyyətini göstərir [3, s.92-96]. O vurğulayır ki, padşahın ədalətli idarəçiliyi yalnız dövlətin möhkəmliyi üçün vacib deyil, həm də ictimai etik prinsiplərin qorunmasına xidmət edir. Lewisohn bu yanaşmanı genişləndirərək göstərir ki, N.Gəncəvi siyasi ideyaları poetik-estetik bir dil vasitəsilə təqdim etməklə oxucunu həm etik düşüncəyə, həm də siyasi fərasətə sövq edir [3, s.130–134].

Purcəvadi hesab edir ki, N.Gəncəvi hakimiyyətin ədalətli və ədalətsiz aspektlərini mistik və fəlsəfi çərçivələrlə bağlayır; burada ictimai ədalət yalnız qanuni bir tələb deyil, həm də ilahi əxlaqın bir təzahürü kimi təqdim olunur [9, s.135–140]. Dəstgerdi əlavə edir ki, N.Gəncəvi əsərindəki sosial və siyasi məsələlər metaforik-simvolik dildə təqdim olunmaqla, həm padşah üçün öyüd, həm də oxucu üçün geniş mənəvi və intellektual dərs rolunu oynayır [8, s.40-44].

Corbin N.Gəncəvinin siyasi-estetik strategiyasını sufizm və hikmət poeziyası kontekstində şərh edir. O, göstərir ki, dahi Nizami ədaləti yalnız qanun və idarəetmə vasitəsi kimi deyil, həm də əxlaqi və kosmoloji prinsip kimi təqdim edərək siyasi və mistik mövzuları birləşdirir [1, s.160–164]. Schimmel isə əlavə edir ki, N.Gəncəvi sosial və siyasi mövzuları mistik-estetik metaforlarla birləşdirərək fars poeziyasında etik-siyasi diskursun zənginləşməsinə xidmət etmişdir [2, s.110–114].

Nizami iqtisadi ədalət, sosial təbəqələrarası münasibətlər və sərvət-hakimiyyətin korrupsioner təsirlərini poetik dillə təqdim edərək hikmət poeziyasının

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 598-604*

didaktik və fəlsəfi qatlarını gücləndirir. Subhani isə vurğulayır ki, N.Gəncəvi sosial və siyasi məsələləri metaforik hekayələr, ədalətsiz padşahların taleyi və xalqın təcrübələri ilə birləşdirərək həm əxlaqi dərs verir, həm də ictimai və siyasi şüuru oyadır [6, s.54–57].

N.Gəncəvi siyasi-estetik dili vasitəsilə həm padşahlara öyüd-nəsihətlərini poetik-estetik formada təqdim edir, həm də sosial və ictimai əxlaqın əhəmiyyətini oxucuya çatdırır, beləliklə fars hikmət poeziyasında nadir bir çoxqatlı nümunə yaradır [1, s. 201–203].

**Mövzu quruluşunda leksik vasitələr.** Nizami Gəncəvinin poetik-estetik dünyasında mövzu quruluşu onun leksik vasitələrindən ayrılmazdır. Əsərin tematik zənginliyi əsasən üç əsas leksik-strateji element üzərində formalaşır: metafora və alleqoriya, leksik qatlaşma, həmçinin sinonimiya və antitez.

1. *Metafora və alleqoriya.* N.Gəncəvi tez-tez güzgü, bağ, xəzinə kimi alleqorik obrazlardan istifadə edir. Həmidiyan göstərir ki, güzgü metaforu, ürək və nur kimi abstrakt anlayışlar konkret təcrübəyə çevrilir [3, s.65–68]. Lewisohn əlavə edir ki, bağ və xəzinə simvolları poetik mətnin strukturunu tematik cəhətdən təşkil edir və N.Gəncəvinin hikmət mesajlarını oxucuya daha asan internalizasiya etdirir [7, s.115–118].

2. *Leksik təbəqələşmə.* N.Gəncəvi həm ərəb, həm də fars leksikası ilə işləyərək mətndə konseptual dəqiqlik və mədəni köklülük yaradır. Ərəb mənşəli sözlər-əql (məntiq), nəfs (özünə nəzarət), qədər (tale)-fəlsəfi və dini anlayışların dəqiqliklə ifadəsinə xidmət edir. Eyni zamanda, fars sözləri: del (ürək), xerəd (hikmət), mehr (məhəbbət)-mədəni və mənəvi köklülüyü qoruyur. Shirazi hesab edir ki, bu leksik qarışım oxucunun həm intellektual, həm də emosional təcrübəsini zənginləşdirir [10, s.150–153].

3. *Sinonimiya və antitez.* N.Gəncəvi bəzən nadir sinonimlərdən istifadə edərək ifadəni zənginləşdirir. Pourjavady vurğulayır ki, bu antitezlər tematik mesajları gücləndirir və oxucuda dərin təsir yaradır [8, s.142-145]. Həmidiyan əlavə edir ki, sinonimiya və antitez Nizaminin etik və fəlsəfi mesajlarını poetik dilin ritmi və melodiyası ilə birləşdirərək oxucuya həm estetik, həm də düşüncəvi həzz verir [3, s.70-72].

Corbin göstərir ki, N.Gəncəvi tematik motivləri leksik və stilistik vasitələrlə transformasiya edərək onları "dil təcrübəsi" halına gətirir; oxucu abstrakt anlayışları poetik obrazlar və simvollar vasitəsilə mənimsəyir [1, s.170–173]. Schimmel qeyd edir ki, N.Gəncəvinin leksik-strateji yanaşması fars hikmət poeziyasında həm etik, həm də estetik təcrübəni inteqrasiya etməsi baxımından unikal nümunədir [6, s.120–123].

Beləliklə, dahi Nizaminin leksik və stilistik cihazları oxucunun abstrakt anlayışları internalizasiya etməsi üçün əsas vasitə kimi çıxış edir. Metafora və alleqoriya, leksik qatlaşma, sinonimiya və antitez vasitəsilə N.Gəncəvi həm etik, həm

fəlsəfi, həm mistik, həm də sosial-siyasi mövzuları vahid poetik-estetik sistemdə birləşdirir [4, s.65–72].

Əxlaqi mövzular çərçivəsində N.Gəncəvi həqiqət, ədalət və mənəvi paklığı poetik obrazlarla təqdim edir və İbn Sina ilə Qəzzali ənənələrinə əsaslanaraq oxucuya ədəbi vasitələrlə çatdırılır.

Nəticədə, Nizami Gəncəvi "Sirlər xəzinəsi"ndə metafora, allegoriya və leksik-strateji vasitələrlə bədii gözəlliyi intellektual və etik dəyərlərlə ustalıqla birləşdirərək həm klassik fars poeziyasının zirvəsini, həm də insanlıq üçün ölməz mənəvi xəzinəni yaratmışdır.

## Ədəbiyyat siyahısı

1. Bosworth, C. E. 2017. Fars Dünyası və Onun Siyasi İdeyaları. London: I.B. Tauris.
2. El-Rouayheb, Khaled. 2015. On Yeddinci Əsrdə İslam İntelektual Tarixi. Cambridge: Cambridge Universiteti Nəşriyyatı.
3. Hamidiyan, Sa'id. 1997. Nizami Gəncəvinin Məxzənül-Əsrarı. Tehran: Aftab Nashr.
4. Hanaway, W. L. 2022. Fars Ədəbiyyatında Stil və Leksika. Leiden: Brill
5. Kamal, A. 2018. "Nizaminin Məxzənül-Əsrarında Əxlaqi Ölçülər." İran Araşdırmaları 51 (1): 73–92.
6. Lazard, Gilbert. 1992. Yeni Fars Dilinin Yüksəlişi. Amsterdam: Benjamins.
7. Lewisohn, L. 2017. Sufizm və Fars Poeziyası: Tarixi və Simvolizm. London: I.B. Tauris.
8. Nizami Ganjavi. Makhzan-ul-Asrar. Hasan Vahid Dastgerdi (compiled and with comments). Tehran: Aftab Nashr, 1376
9. Pourjavady, N. 2020. Orta Əsrlərdə Fars Dünyasında Fəlsəfə. Leiden: Brill.
10. Shirazi, F. 2021. "Nizaminin Erkən Poeziyasında Mistik Simvolizm." Fars Ədəbiyyatı Jurnalı 6 (2): 133–155.

**Elmi rəhbər: f.e.d, professor Möhsün Nağısoylu**